***Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan çoxvektorlu gənclər siyasəti ölkə gəncləri üçün yeni imkanlar açır. Onların öz potensiallarını reallaşdırmaları, xarici ölkələrdə təhsil almaları və ölkəmizi beynəlxalq aləmdə layiqincə təmsil etmələri üçün hər cür şərait yaradılıb. İstedadlı gənclərə dövlət qayğısı, onların sağlamlığının qorunması və fiziki inkişafının, o cümlədən, məşğulluğunun təmin edilməsi, gənc ailələrə, gənclər təşkilatlarına dövlət yardımı yeni perspektivlərin reallaşmasına təkan verir. Gəncliyin inkişafına əlverişli şərait yaradılması məqsədilə qəbul edilmiş dövlət proqramları, gənclər mərkəzlərinin yaradılması, keçirilən forumlar bu sahədə fundamental nəticələr qazandırmaqdadır.***

# Azərbaycan gəncliyi Vətənin müdafiəsinə hər zaman hazırdır

Prezident İlham Əliyev gənclərlə keçirdiyi bütün görüşlərdə dəfələrlə bəyan edib ki, ölkəmizin gələcəyi intellektual, bacarıqlı gənclərin əlindədir. Dövlət başçımız Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda da bu barədə geniş söhbət açdı. Bu görüş bütün gənclərə yeni stimul verir, eyni zamanda, öhdəliklər müəyyənləşdirir. Azərbaycan gənclərinin innovativ düşüncə və rəqabətə davamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışı təşviq olunur. Gənclərə göstərilən diqqət və qayğı onların dövlət quruculuğu prosesinə cəlb edilməsini, eləcə də, icra orqanlarında təmsil olunmalarını təmin edir.

Prezident qeyd etdi ki, biz Azərbaycan vətəndaşı olmağımızla fəxr edirik. Gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək, eyni zamanda, dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar. Azərbaycan gəncliyi həm də dövlətin və cəmiyyətin inkişaf təməlidir. Dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən birbaşa asılıdır. Bu gün Azərbaycan gənci ictimai həyatın bütün sferalarında fəallığı ilə seçilir.

Yetişməkdə olan nəslə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və bundan irəli gələn vəzifələrin dəqiqliklə yerinə yetirilməsi nəticəsində, gənclərimiz bir çox sahələrdə böyük nailiyyətlər qazanırlar. Bütün bu uğurlarla yanaşı, müasir Azərbaycan gənci həm də Vətənə və dövlətə bağlılığı ilə seçilir. Onların vətənpərvərlik ruhunda yetişməsi, ərazi bütövlüyümüz uğrunda tərəddüd etmədən canlarından keçməsi hər birimiz üçün nümunə olmalı, eyni zamanda, bütövlükdə cəmiyyətimizin və dövlətimizin uğuru kimi qiymətləndirilməlidir.

Xalqımız İkinci Qarabağ müharibəsində də bunun şahidi oldu. 44 gün davam edən müharibədə düşməni darmadağın etdik. “Dəmir yumruq” hesabına qazandığımız qələbə sayəsində 30 illik işğala son qoyuldu, öz tarixi torpaqlarımıza qayıtdıq və ərazi bütövlüyümüz bərpa olundu. Bu müharibə göstərdi ki, bizim ən böyük qazancımız son



illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəslin yetişməsidir. Xüsusilə, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi müddətdə yetişən gənc nəsil qəhrəmanlıq göstərdi və “Torpaqdan pay olmaz!” – deyərək düşməni diz çökdürdü, xalqımıza böyük qələbə bəxş etdi. Təbii ki, şanlı qələbəmizdə bütün nəsillərin payı var. Lakin cənab Prezidentin də qeyd etdiyi kimi, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. Çünki Azərbaycanda gənc nəsil vətənpərvərlik ruhunda yetişir. 30 il əvvəl işğal edilmiş ərazilərimizin azad olunması gənc nəslin də müəyyən etdiyi əsas vəzifələrdən biri idi. Xüsusilə, Prezident İlham Əliyevin güclü bir lider kimi hər zaman dövlətçilik maraqlarını ən ali səviyyədə müdafiə etməsi gənc nəsil üçün əsl nümunədir.

Ərazi bütövlüyümüzün təmin olunması Azərbaycanda hər zaman dövlət siyasətinin prioritetini təşkil edib. Məhz Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə cəmiyyətdə mövcud olan həmrəylik daha da dərinləşdi. Uğurlu dövlət idarəçiliyi sayəsində Azərbaycan cəmiyyətində yaşından, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, hər kəs vahid amal uğrunda, möhtərəm Prezidentimizin də söylədiyi kimi, “dəmir yumruq” kimi birləşdi. Bundan sonra da gənc nəslin nümayəndələri olaraq, qalib dövlətin təmsilçiləri kimi, heç kimdən çəkinməyən, hər zaman milli və dövlətçilik maraqlarını müdafiə edən müzəffər liderin ətrafında daha sıx birləşəcəyik.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***